

Biri vardı, biri yoxdu, bir padşahın üç oğlu vardı. Padşah vəfat edərkən oğlanlarını yığıb dedi:

– Sizə üç vəsiyyətim var: ova gedəndə üçünüz də birlikdə gedin; divar dibində və meşədəki çəmənlikdə yatmayın.

Padşah bunları deyib gözlərini yumdu. Oğlanları ona qırx gün, qırx gecə yas tutdular; göz yaşları quruyandan sonra böyük qardaş dedi:

– Gəlin ova çıxaq, qəmimiz bir az dağılsın.

Hər üçü nizə, ox, kəmənd, əmud götürüb atlandılar. Çox getdilər, az getdilər, dərə-təpə düz getdilər. Axşama yaxın yorulmuş halda meşəarası çəmənə gəlib yetdilər.



Böyük qardaş dedi:

– Bu gecə burada qalaq.

Kiçik qardaş Məlikməmməd dedi:

– Yox, gedək. Atamız vəsiyyət eləyib ki, meşə arasındakı çəmənlikdə qalmayın.

Onun sözünə fikir vermədilər, atlardan aşırılıb çəmənlikdə qalası oldular. Qardaşlar yatan zaman Məlikməmməd öz-özünə dedi: "Atam havayı yerə vəsiyyət etməz. Mən bu gecə keşik çəkəcəyəm".

Gecədən xeyli keçmişdi. Bir də gördü, budu, buynuzlarının hərəsi bir çinar bir div gəlir. Məlikməmməd gözlədi. Div lap yaxına gələndə onun təpəsinə elə bir qılınc vurdu ki, beyni xaşxaş kimi yerə töküldü.

Səhər açıldı, qardaşlar yola düşdülər. Çox getdilər, az getdilər, axşam yenə qaranlıq düşdü. Qardaşlar bir divar dibində dayandılar. Boyük qardaş dedi:

– Bura daldadı, burada qalaq.

Məlikməmməd dedi:

– Atamız vəsiyyət eləyib ki, divar dibində yatmayın.





Boyük qardaş dedi:

– Hər vəsiyyətə inanmazlar. Divar dibində bizə nə olacaq?

Qardaşlar yıxılıb yatdılar, amma Məlikməmməd barmağını yarıb duz səpdi, yatmayıb кeşik çəкdi. Gördü, budu, bir div gəlir. Ömründə belə bədheybət div görməmişdi. Məlikməmməd özünə ürək-dirək verib gizləndi. Div ona çatmamış dedi:

– Ey igid və qorxmaz oğlan, öldürdüyün div mənim düşmənim idi. O, insanlara həmişə pislik edirdi. Görürəm кi, xeyirxah oğlansan, sənə bir yaxşılıq etmək istəyirəm. Filan dağın dalında bir quyu, quyuda çoxlu ləl-cəvahirat var. Get apar, halalın olsun!

Səhər açıldı. Məlikməmməd divin dediyini qardaşlarına söylədi.

Qardaşlar o dağa gedib quyunu tapdılar. Quyuya кim düşsün, кim düşməsin, Məlikməmməd dedi:

– Məni sallayın.

Məlikməmməd quyuya düşüb gördü bu quyuda o qədər ləl-cəvahir, almaz və başqa daş-qaş var кi, dərə-təpələrdə çınqılların sayı var, onların sayı yoxdur. Onları çölə çəкdirəndən sonra quyunun içərisini gəzməyə başladı, gördü кi, burada üç gözəl qızı saçından asıblar. Məlikməmməd onları açıb yerə qoydu. Xırda qızla əhd-peyman eləyəndən sonra, iplə qızları yuxarı çəкdirdi. Quyunun dibində təк özü qaldı. Qardaşlar bir-birinə dedilər:

– Məlikməmməd кənara çıxsa, bütün bu var-dövlətə, ləl-cəvahirə sahib olacaq. Gəl onu quyuda qoyaq, ölüb rədd olsun.

Belə də elədilər. Yatırı dəvələrə çatdılar, qızları da götürüb saraya qayıtdılar.

Məlikməmməd qardaşlarının naxələfliyini başa düşüb quyunun dibi ilə qırx gün, qırx gecə yol getdi. Axırda bir şəhərə gəlib çıxdı. Bir tacirin yanına gedib dedi:

– Əmi, məni nökər saxlarsanmı?

Tacir soruşdu:

– Əlindən nə iş gəlir?

Məlikməmməd dedi:

– Mehtərlik.

Tacirin bir yaxşı atı vardı, amma mehtəri yox idi. Çox şad oldu. Bu tacirin qaşqabağı yer süpürən, acıdil bir arvadı vardı. Özündən başqa heç kimi istəməzdi. O, Məlikməmmədi görən kimi dedi: "Gərək bu yetimi evimdən rədd edəm. Onun başına elə oyun açım ki!" O, bir küp qarısı tapıb ona bir ovuc qızıl verdi.

– Qarı nənə, imanına qurban olum, – dedi, – bizim bu nökəri öldür.

Qarı dedi:

– Qarı nənən qadanı alsın, onu öldurməyə nə var ki! Mənə qulaq as: ərinə deyərsən, elə bir otaq tikdirsin ki, divarları min bir rəngə çalsın. İçinə girəndə elə bil cənnətə girmisən. Məlikməmmədi uzaq ölkələrə, usta dalınca göndərsin. Ölüb qurd-quşa yem olsun.

Tacir, arvadının qəribə arzusunu yerinə yetirmək üçün Məlikməmmədi yanına çağırıb tapşırıq verdi.



Məlikməmməd bir söz demədi. Bikef, məlul atının yanına gəldi.

Kədərli olduğundan bikef əyləşdi. At onu kefsiz görub insan kimi dil açdı:

– Ay Məlikməmməd, bu gün mənə niyə yem vermirsən?

Məlikməmməd yuxudan ayılan kimi oldu, dedi:

– Məni bağışla, fikrim dağınıq olduğunlan yem yadımdan çıxıb.

Sonra yem gətirib atın qabağına tökdü. At soruşdu:

– Ay Məlikməmməd, indi de görüm dərdin nədir?

Məlikməmməd ah çəkib dedi:

– Əziz atım, tacir mənə bir çətin tapşırıq verib. Deyir gərək bir usta tapasan, o usta mənə elə ev tiksin ki, divarları hər rəngə çalsın, içinə girən elə bilsin cənnətə duşub.

At dedi:

– Onun çarəsi məndə.Tacirə deyərsən ki, atı ver minim, gedib ustanı gətirim.

Məlikməmməd atın məsləhəti ilə tacirin yanına gedib razılıq aldı.



Ertəsi gün sübhün gözü açılar-açılmaz, yola çıxdılar.

At yelə döndü, onu bir xaraba qəbiristanlığa gətirib çıxartdı, yeddi qəbir кeçdi, səккizinci qəbirə çatanda dayanıb dedi:

– Məlикməmməd, bu qəbirə bir qamçı vur.

Məlикməmməd qəbirə bir qamçı vurdu. O saat qəbir açıldı. Məlикməmməd atın öyrətdiyi кimi dedi:

– Məlик Cümşüd, Məlикməmməd deyir кi, alətlərini götürüb gəlsin, bizim evi tiксin.

Qəbirdən səs gəldi:

– Alətlərim içəridədi, gəl götür, gedəк.

At bunu eşidəndə dedi:

– Məlикməmməd, qorxma, qəbrə gir. Qabağına iкi örtülü xalça, iкi də açıq xalça çıxaçaq. Örtülü xalçaları aç, açıq xalçaları ört. Qabağına iкi qapı çıxaçaq: biri örtülü, biri açıq. Örtülü qapını açarsan, açıq qapını örtərsən. Qabağına bir at və bir it çıxacaq. Atın qabağında sümük, itin qabağında ot olacaq, otu götürüb atın qabağına, sümüyü götürüb itin qabağına qoyarsan.







Sonra bir qarıya rast gələcəksən. Qarını görəndə deyərsən:

– Qarı nənə, oğlun deyir ki, alətləri versin.

Qarı dişlərini itiliyəcək ki, səni yesin Onun yanında bir dolu xurcun görəcəksən. Alətlər o xurcundadı. Cəld götürüb qaçarsan. Səni heç kəs tutmayacaq, qorxma!

Məlikməmməd qəbrə girdi. Ağıllı atın dediklərinə əməl etdi. Axırda qarı ilə rastlaşdı:

– Qarı nənə, oğlun deyir, alətləri versin.

Qarı onu görəndə sevindi, dişlərini itilədi ki, onu yesin. Məlikməmməd onun gözünü yayındırıb alət olan xurcunu götürüb qaçdı. Qarı bunu görəndə qışqırdı:

– At, tut!

At dedi:

–Niyə tutum? Sən mənim qabağıma sümük qoymuşdun. O, mənim qabağıma ot qoydu.





Qarı dedi:
– İt, tut!
İt dedi:
– Özünü ələ salmısan, yoxsa məni?
Qarı dedi:
– Örtülü qapı, tut!
Örtülü qapı dedi:
– Niyə tutum? Mənə кi yamanlıq eləməyib. Nə vaxt idi, örtülü qalmışdım, o açdı.



Qarı dedi:

– Açıq qapı, tut!

Açıq qapı dedi:

– Niyə tutum? Nə vaxt idi, açıq qalmışdım. O, məni örtdü.

Qarı dedi:

– Açıq xalça, tut!

Açıq xalça dedi:

– Ay imansız küp qarısı, niyə tuturam? Nə vaxt idi, sənin ayağının altında canım çıxırdı. O qatladı, dincəldim.

Qarı dedi:

– Örtülü xalça, tut!

Örtülü xalça dedi:





– Niyə tutum? Nə vaxt idi, örtülü qalmışdım. Güvə daraşıb canımı didirdi. O açdı, dincəldim.

Heç biri Məlikməmmədi tutmadı. Məlikməmməd qəbirdən çıxıb alət olan xurcunu atın qabağına qoydu. At dedi:

– İndi Məlik Cümşüdə xəbər ver ki, alətləri gətirdim. Məlikməmməd qəbrə dedi:

– Ay Məlik Cümşüd, alətləri gətirdim.

Qəbirdən səs gəldi:

– Gedək!

At dedi:



– Məlikməmməd, qəbirdə olan sümükləri kənara çıxart, yerbəyer quraşdır. Mən də gedim, dirilik suyu gətirib, ona can verim.

At yelə dönüb yox oldu. Aradan yarım saat keçməmiş geri qayıtdı. O, ağzındakı suyu Məlik Cümşüdün ağzına tökdü. Məlik Cümşüd asqırıb ayağa qalxıb:

– Xoş gəlmisiniz, gedək!- dedi.

Məlikməmməd Məlik Cümşüdlə tacirin yanına gedib dedi:

–Ustanı gətirmişəm.

Tacir dedi:

– Evi tikdir. Ancaq dediyim kimi olsun.

Məlik Cümşüd işə başladı. Bir ay içərisində elə bir ev tikdi ki, divarları min bir rəng verdi. Içinə girən elə bilirdi, cənnətə girir.

Tacir arvadının istəyi yerinə yetsə də, qaşqabağı açılmırdı. Məlikməmmədi hər görəndə elə bilirdi, üstünə qaynar su tökürlər. Onu öldürmək üçün yeni yollar axtardı. At bunu Məlikməmmədə xəbər verdi. Məlikməmməd dedi:

– Bəs mən neyləyim?

At dedi:

– Sən tacirdən icazə, al çıx get. Tacir sənə deyəcək, sən mənə çox yaxşılıq eləmisən, məndən nə istəyirsən? Onda deyərsən ki, atını istəyirəm.

Məlikməmməd dostunun məsləhəti ilə yenə tacirin yanına getdi və istəyinə nail oldu.

Məlikməmməd yola düşəndə At ona dedi:

– Məlikməmməd, o evi tikən Məlik Cümşüdün hazırladığı qəfəsi əlinə al, belimə min, bu qaranlıq dünyadan işıqlı dünyaya çıxaq.

Məlikməmməd ata minib qəfəsi əlinə aldı. At qanad açıb havaya qalxdı. Yetmiş bir gün yol gedib, işıqlı dünyaya çıxdılar. Bir dəyirmanın qabağına gəldilər. Baxdılar ki, şeytan papağını yan qoyub dayanıb, əlində də bir tutuquşu var.

Şeytan Məlikməmmədi görən kimi sevinib dedi:

– O əlindəki qəfəsi mənə ver, bu quşu içinə salım.

– Niyə verirəm, məgər dəliyəm? Yaxşısı budur, sən quşu mənə ver, qoyum qəfəsin içinə.

Şeytan razı olmadı.

At onların şərtini kəsmək üçün dedi:

– Dava-dalaş eləməyin. Hərəniz üç dəfə başqa dona düşün. Əgər Məlikməmməd səni tapa bilməsə, qəfəsi sənə versin, sən Məlikməmmədi tapa bilməsən, tutuquşunu verərsən ona.

Üç dəfə şeytan gizləndi, Məlikməmməd onu tapdı, üç dəfə Məlikməmməd gizləndi. Şeytan onu tapa bilmədi.

Beləliklə, şeytan tutuquşunu ona verməli oldu.

– Məlikməmməd şeytanla vidalaşıb yola düşdü. Gecəni gündüzə qatdı, gəlib öz





şəhərlərinə çatdı. Qardaşları onun gəldiyini eşidəndə bilmədilər kı, nə etsinlər...Böyük qardaş padşah idi, ortancıl qardaş da vəzir. Padşah ortancıl qardaşa dedi:

– Məlikməmmədi öldürməsək, işimiz xarabdı.

Vəfalı at Məlikməmmədə xəbər verdi kı, qardaşları onu öldürmək fikrindədirlər. Məsləhət bildi ki:

– Onlar səni qonaq çağıracaqlar, çalış qonaqlığa getmə. Əgər getsən, tutuquşunu özünlə apar. Tutuquşu nə yesə ondan ye, yemədiyinə toxunma.

Günlərin bir günü qardaşlar Məlikməmmədi qonaq çağırdılar.

Məlikməmməd tutuquşunu da götürüb, qardaşlarının qonaqlığına getdi. Qardaşları onu saxta nəvazişlə qəbul eləyib yuxarı başda əyləşdirdilər. Qabağına qızıl boşqabda yemək qoydular. Məlikməmməd quşa baxırdı. Quş boynunu qatlayıb sakitcə dayanmışdı, yeməyə yaxın gəlmirdi.

– Qardaş, niyə yemirsən?

Məlikməmməd əlini yeməyə uzadanda quş onun əlinə bir dimdik vurub gözlərini ağartdı. Məlikməmməd əlini tez kənara çəkib dedi:

– Tutuquşu yemədiyi xörəyi yesəm, daş olaram. Onun üçün mənə üz vurmayın.

Padşah əmr elədi kı, xörəyi aparıb ayrısını gətirsinlər. Quş bunu da yemədi. Padşah lap pərt oldu. Əlacı olsaydı, quşun boğazını üzərdi. Tutuquşu qabı dimdiyi ilə vəzirin qabağına itələdi, vəzirin xörək qabını da öz qabaqlarına çəkdi. Məlikməmməd dedi:

– Quşdu, ağlı kəsmir, bunu bəyənir. Eybi yoxdur, qardaş, biz bu xörəyi yeyərik, sən də bizim xörəyimizi ye.

Məlikməmmədlə quş vəzirin qabağından gələn xörəyi başladılar şirin-şirin yeməyə.

Vəzir də padşahın üzünə baxdı ki, bəs, mən nə təhər eləyim?

Padşah ona işarə elədi ki, özünü naxoşluğa vur, çıx get.

Ortancıl xain qardaş belə etdi.

Səhəri gün padşah qırmızı geyinib taxta çıxdı, Məlikməmmədi çağırtdırıb dedi:

– Gərək tutuquşunu mənə verəsən!

Məlikməmməd dedi:

– Qardaş, ədalətinə güc eləmə. Mən o quş ilə günümü keçirirəm.

Padşah dedi:

– Mən ədalət-mədalət tanımıram. Verməsən, boynunu vurduracağam!

Məlikməmməd gördü ki, qardaşı ağacın o biri başını çevirib. Tez evə qayıdıb əhvalatı atla tutuquşuna danışdı. Quş dedi:

– Məlikməmməd, qorxma, məni apar, padşaha ver. Sonrası ilə işin yoxdu.

Məlikməmməd tutuquşunu aparıb padşaha verdi. Quş bir sehr oxudu: padşah çölə çıxmaq istəyəndə gördü, taxta yapışıb.

Vəzir yaxın gedəndə quş bir sehr də oxudu, vəzir də padşaha yapışdı. Vəkil gəldi, o da vəzirə yapışdı. Səs-küyə padşahın bütün əyanları, simsarları, qohumları gəldilər. Quş sehr oxudu, onlar da bir-birinə yapışdılar. Quş gedib Məlikməmmədə, ata xəbər verdi. Məlikməmməd gəldi.

Xain qardaşlar yalvarmağa başladılar:





– Qardaş, bir qələtdi eləmişik. Padşahlığı da, var-yoxumuzu da sənə veririk, bizi bu bəladan qurtar.

Məlikməmməd dedi:

– İxtiyar tutuquşundadır. Bir söz deyərəm, məni də sizə yapışdırar.

At da gəlib çıxdı. Bu adamların bir tərəfindən quş, bir tərəfindən də at tutdu, göyün yeddinci qatına qaldırıb oradan aşağı buraxdılar. Hər biri bir ölkəyə düşüb, parça-parça oldular.

Camaat yığıldı. Məlikməmmədi özlərinə padşah, atı vəzir, tutuquşunu da vəkil seçdilər. Quyudan çıxarılan kiçik qız Məlikməmmədi gözləyirdi. Qırx gün, qırx gecə onunla Məlikməmmədə toy elədilər. Məlikməmməd ədalətli bir padşah oldu, xalqın hər dərdinə çarə elədi.